## Rəsmi sənədlər

# Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin

# Sərəncamı

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan–Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 sentyabr 2022-ci il

**“Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli”**

**elan edilməsi ilə bağlı Tədbirlər Planı” nın təsdiq edilməsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli 3494 nömrəli Sərəncamına uyğun olaraq qərara alıram:

1. “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı” təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyası həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**

Bakı şəhəri, 28 noyabr 2022-ci il № 3623

## “Heydər Əliyevin 100 illiyi (1923-2023)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq qərara alır:

**Maddə 1**. “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; 1993, № 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 251; 2003, № 12 (I kitab), maddə 677; 2005, № 4, maddə 291; 2006, № 10, maddə 846; 2007, № 3, maddə 213; 2008, № 6, maddələr 452, 472; 2009, № 1, maddə 4, № 5, maddə 312, № 7, maddələr 514, 515, № 12, maddə 974; 2010, № 3, maddə 174, № 11, maddə 960; 2011, № 11, maddə 992; 2012, № 7, maddə 664, № 11, maddələr 1036, 1048, 1061; 2013, № 5, maddələr 460, 478, № 10, maddə 1143, № 12, maddə 1477; 2014, № 6, maddələr 612, 623; 2015, № 12, maddə 1447; 2016, № 12, maddələr 1979, 2040; 2017, № 1, maddələr 16, 27, № 7, maddə 1311, № 10, maddə 1771, № 11, maddə 1962, № 12 (I kitab), maddələr 2242, 2269; 2018, № 2, maddə 168, № 3, maddə 387, № 5, maddələr 841, 859, 874, № 6, maddə 1190, № 11, maddə 2207, № 12 (I kitab), maddələr 2465, 2516; 2019, № 3, maddə 369, № 5, maddə 790, № 11, maddə 1693, № 12, maddə 1909; 2020, № 5, maddə 506, № 11, maddələr 1324, 1325, № 12 (I kitab), maddələr 1428, 1430; 2021, № 1, maddə 9, № 12, maddələr 1322, 1324, 1325; 2022, № 6, maddə 590, № 7, maddə 711, № 11, maddə 1238, № 12, maddə 1397; 2023, № 1, maddələr 29, 42) 2-ci maddəsinə “Vətən Müharibəsi Qəhrəmanı” medalı;” hissəsindən əvvəl aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

“Heydər Əliyevin 100 illiyi (1923-2023)” Azərbaycan Respublikasının yubiley medalı;”.

**Maddə 2.** “Heydər Əliyevin 100 illiyi (1923-2023)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

**Maddə 3.** “Heydər Əliyevin 100 illiyi (1923-2023)” Azərbaycan Respublikasının yubiley medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 11 aprel 2023-cü il**

Azərbaycan.- 2023.- 27 aprel.- S.2.

**Azərbaycan Respublikasının**

**2023-cü il 11 aprel tarixli**
**Qanunu ilə təsdiq edilmişdir**

# "Heydər Əliyevin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

"Heydər Əliyevin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra – medal) üzəri 999.9 əyarlı qızıl qatı ilə örtüləcək soyuq ştamplama üçün nəzərdə tutulmuş xüsusi tərkibli əlvan metaldan hazırlanan ümumi diametri 42 mm olan, bir-birinin üzərinə qoyulmuş iki səkkizguşəli ulduzdan ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfində hər bir guşəsi relyefli xətlərlə işlənmiş səkkizguşəli ulduzun üzərində guşələri ağ rəngli mina ilə işlənmiş səkkizguşəli ulduz yerləşdirilmişdir. Ağ minalı səkkizguşəli ulduzun üzərində xarici və daxili çevrələrlə konturlanmış, diametri 26 mm olan dairəvi lövhə yerləşdirilmişdir. Xarici və daxili çevrələrin arasında yuxarı qövs boyunca "HEYDƏR ƏLİYEV" sözləri, aşağı qövs boyunca "1923-2023" rəqəmləri yazılmışdır.
2.2. Daxili çevrənin içərisində, mərkəzdə Heydər Əliyevin barelyefi həkk olunmuşdur.
2.3. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır, qızılı rəngdədir.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfi hamar səthlidir.

3.2. Medalın arxa tərəfinin aşağı hissəsində medalın seriyası və nömrəsi göstərilir.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, yuxarı hissəsinə 34,5 mm x 1,5 mm ölçülü və aşağı hissəsinə 34,5 mm x 7,5 mm ölçülü, üzərində dəfnə yarpaqlarından ibarət çələng həkk olunmuş qızılı rəngli hamar lövhə bərkidilmiş, 31,5 mm x 15 mm ölçülü xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.
4.2. Xara lentin üzərində hər birinin eni 10,5 mm olan, Azərbaycan Respublikası Dövlət Bayrağının rənglərini əks etdirən yaşıl rəngli, qırmızı rəngli və mavi rəngli şaquli zolaqlar əks olunmuşdur.
4.3. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş, 31,5 mm x 9 mm ölçülü qəlib əlavə olunur.

**“Heydər Əliyevin 100 illiyi (1923-2023)” Azərbaycan Respublikasının yubiley medalının təsviri**









# Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri vardır. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir.

Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin əsas qanunu Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Heydər Əliyevin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir.

Azərbaycanın dünya miqyasında neft-qaz hasil və ixrac edən ölkəyə çevrilməsi, milli neft strategiyasının uğurla həyata keçirilməsi, xarici dövlətlərin aparıcı neft şirkətləri ilə müqavilələrin bağlanması, neft sənayesinin müasir tələblərə uyğun infrastrukturunun qurulması, neftin Bakı–Tbilisi–Ceyhan, Bakı–Supsa, Bakı–Novorossiysk boru kəmərləri vasitəsilə şaxələnmiş şəkildə nəqli bilavasitə Heydər Əliyevin xidmətləridir.

Dünya iqtisadiyyatına uğurla inteqrasiya, ölkə daxilində iqtisadi liberallaşma, kredit reytinqimizin artması, iqtisadiyyatımızın rəqabət qabiliyyətliliyinin yüksək mövqedə olması, büdcəmizin və valyuta ehtiyatlarımızın ildən-ilə çoxalması 1993-cü ildən etibarən Heydər Əliyev tərəfindən yeni prinsiplər əsasında qurulan iqtisadiyyatın sabitliyinin bariz nümunəsidir. Azərbaycanda qeyri-neft sektorunun uğurla inkişaf etdirilməsi də Heydər Əliyevin uzaqgörənliyinin məntiqi nəticəsidir.

Postsovet məkanında analoqu olmayan cəsarətli qərarları ilə Heydər Əliyev torpağın şəxsi mülkiyyətə verilməsi ilə ölkəmizin ərzaq təhlükəsizliyini təmin etmiş oldu. Bu gün müxtəlif kənd təsərrüfatı komplekslərinin uğurlu fəaliyyəti onun aqrar siyasətinin parlaq təzahürüdür.

Ulu öndərin vaxtilə Cəmşid Naxçıvanski adına hərbi liseyin açılması ilə həyata keçirməyə başladığı müdrik siyasəti milli ordumuzun formalaşması və Azərbaycan Silahlı Qüvvələrinin yaradılması mərhələlərindən keçərək onun Cənubi Qafqazda aparıcı hərbi qüvvə olmasına gətirib çıxarmışdır.

Ana dilimizin dövlət dili kimi tətbiqində, onun imkanlarının genişləndirilməsi və Azərbaycan xalqının ən böyük sərvəti kimi dəyərləndirilməsində Heydər Əliyev şəxsiyyətinin rolu danılmazdır. Azərbaycan mədəniyyətinin və zəngin tarixi irsimizin dünya ictimaiyyətinə tanıdılması Heydər Əliyevin misilsiz xidmətlərindəndir. Məhəmməd Füzulinin 500 illik və "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileylərinin UNESCO səviyyəsində keçirilməsi Azərbaycan mədəniyyətinin təbliğinə xidmət edərək beynəlxalq mədəni ictimaiyyətlə yeni əməkdaşlıq formalarının bərqərar olmasına gətirib çıxarmışdır.

Heydər Əliyevin rəhbərliyi altında milli maraqlara əsaslanan və siyasi perspektivləri nəzərə alan xarici siyasət kursu müəyyənləşmiş, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə qarşılıqlı münasibətlər qurulmuşdur. Onun uğurlu xarici siyasəti ölkəmizin etibarlı tərəfdaş kimi qəbul edilərək beynəlxalq miqyasda nüfuzunun artmasına, islahatçı və təşəbbüskar dövlət olaraq tanınmasına xidmət göstərmişdir. Heydər Əliyevin beynəlxalq aləmdə atdığı qətiyyətli addımlar sayəsində diplomatiyamızın fəal mövqeyi formalaşmış, Azərbaycanın zorla cəlb olunduğu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dünya ictimaiyyətinin münasibəti dəyişmiş, ölkəmizin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı bütün beynəlxalq hüquqi-normativ sənədlərdə öz əksini tapmışdır.

Heydər Əliyev Böyük İpək Yolunun mühüm mərkəzi olan, mədəniyyətlərin və sivilizasiyaların qovşağında yerləşən ölkəmizi dünyada tolerantlığın və dözümlülüyün məkanı kimi tanıtmışdır. Onun beynəlxalq səfərləri, siyasi, ictimai və dini xadimlərlə görüşləri ölkəmizin yeni imicinin formalaşmasına xidmət edirdi.

Xalqımızın ümummilli liderinin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözləri dünya azərbaycanlılarının şüarı olmaqla, soydaşlarımızın həmrəyliyinin təməl daşına çevrilmişdir. Müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi illər ərzində Heydər Əliyev tərəfindən aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycan diasporu təşkilatlanmış, inkişaf etmiş və öz tarixi vətəni ilə sıx bağlılığını nümayiş etdirmişdir. Bu gün dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikasını öz vətəni sayması, onu milli ruhun, milli-mənəvi dəyərlərin, milli mədəniyyətin məbədi kimi qəbul etməsi və azərbaycançılıq ideyası ətrafında birləşməsi məhz Heydər Əliyev fəaliyyətinin nəticəsidir.

Heydər Əliyevin XX əsrdə totalitarizmin Azərbaycana qarşı törətdiyi faciələrin davamı kimi qanlı 20 Yanvarı xalqımız əleyhinə hərbi, siyasi və mənəvi təcavüz kimi qiymətləndirməsi onun ömrü boyu sadiq qaldığı siyasi məfkurəsinin və yüksək vətənpərvərliyinin yeni siyasi şəraitdə təcəssümü idi. Mövcud siyasi, iqtisadi və sosial böhran müstəqilliyimizin ilk illərində Azərbaycanı vətəndaş müharibəsi həddinə çatdırdığı bir dövrdə Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəldiyi gün – 1993-cü ilin 15 iyunu tariximizə Qurtuluş Günü kimi daxil olmuşdur. Bu qurtuluş qısa bir zamanda özünü

nəinki siyasətdə, həm də iqtisadiyyatda, təhsildə, mədəniyyətdə və insanların gündəlik real həyatında büruzə vermişdir.

Tənəzzülə uğrayan iqtisadiyyat, sürətlə artan inflyasiya, işsizlik, ümidsizlik mühiti və digər neqativ hallarla üz-üzə qalmış Azərbaycanı Heydər Əliyev qısa bir zamanda iqtisadi və mədəni yüksəliş yolu tutan, xarici sərmayələrə açıq olan və böyük beynəlxalq layihələrə qoşulan ölkəyə çevirə bildi. Heydər Əliyevin qurduğu dövlətin iqtisadi siyasəti əhalinin sosial müdafiəsini daim diqqət mərkəzində saxlamaqla sosial yönümü ilə səciyyələnirdi. Bu gün Azərbaycan nüfuzlu vətəndaş cəmiyyətinin əsaslarının qurulduğu, müxtəlif siyasi partiyaların sərbəst fəaliyyət göstərdiyi, yüzlərlə senzurasız qəzet və jurnalın nəşr olunduğu, eləcə də çox sayda özəl telekanalların yayımlandığı və internet şəbəkəsi istifadəçilərinin sayının sürətlə artdığı bir ölkədir.

Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur. Onun siyasəti nəticəsində əldə olunan misilsiz nailiyyətlər göz qabağındadır. Bu uğurlar paytaxtımızın daim yeniləşən görkəmində, şəhər və rayonlarımızın sürətlə modernləşməsində, iqtisadiyyat və elmdə, təhsil, mədəniyyət və səhiyyədə, eləcə də ictimai-siyasi həyatımızda öz əksini tapmışdır.

Heydər Əliyevin memarı olduğu Azərbaycan bu gün böyük tikinti meydançasını xatırladır. Yüzlərlə sənaye və infrastruktur obyektləri, məktəblər, xəstəxanalar, idman qurğuları, yaşayış evləri, inzibati binalar və digər tikililər ucaldılır, yollar salınır. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası bizim gələcək planlarımızı əks etdirməklə yanaşı bir daha sübuta yetirir ki, Heydər Əliyevin ölkəmizin sürəkli tərəqqisini bu gün də təmin edən irimiqyaslı proqramları xalqımızın sosial-iqtisadi vəziyyətinin daim yaxşılaşmasına xidmət göstərir.

Müstəqil Azərbaycan dövlətinin hərtərəfli inkişafı yolunda əvəzsiz tarixi xidmətlərini nəzərə alaraq, milli dövlətçilik ideyasının bərqərar olması və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması naminə misilsiz töhfələr vermiş Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinin ölkə miqyasında layiqincə keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi Azərbaycan Respublikasında dövlət səviyyəsində geniş qeyd edilsin.

2. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinin keçirilməsinə dair Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**

**Bakı şəhəri, 21 yanvar 2013-cü il**
**№ 2679**

# “Heydər Əliyev Mərkəzinin Əsasnaməsi”nin təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Heydər Əliyev Mərkəzinin fəaliyyətini təmin etmək məqsədi ilə qərara alıram:

1. “Heydər Əliyev Mərkəzinin Əsasnaməsi” təsdiq edilsin (əlavə olunur).

2. Heydər Əliyev Mərkəzinin aparatının işçilərinin say həddi 154 ştat vahidi müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. cari ilin sonuna kimi Heydər Əliyev Mərkəzinin fəaliyyəti ilə bağlı tələb olunan vəsaitin ayrılmasını müvafiq qaydada təmin etsin;

3.2. 2013-cü il və növbəti illər üçün Azərbaycan Respublikasının dövlət büdcəsinin layihəsində Heydər Əliyev Mərkəzinin fəaliyyətinin maliyyələşdirilməsi üçün ayrıca sətirlə müvafiq vəsaitin nəzərdə tutulmasını təmin etsin;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 oktyabr tarixli 161 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, №10, maddə 774) ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 8 oktyabr 2012-ci il
№ 709

**Azərbaycan. - 2012.- 9 oktyabr.- S. 9.**

## HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN ƏSASNAMƏSİ

### 1. Ümumi müddəalar

**1.1.** Heydər Əliyev Mərkəzi (bundan sonra – Mərkəz) “Heydər Əliyev Mərkəzi”nin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 dekabr tarixli 1886 nömrəli Sərəncamı ilə yaradılmışdır.

**1.2.** Mərkəz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinin, Heydər Əliyev irsinin dərindən öyrənilməsi, tədqiqi, geniş təbliği, qorunub saxlanılması, hərtərəfli inkişaf etdirilməsi və tətbiqini, habelə elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekologiya və iqtisadiyyatın müxtəlif sahələrinə dəstək verilməsini, bu sahələrin inkişaf etdirilməsinə xidmət edən layihələrin həyata keçirilməsini, yerli, regional və beynəlxalq tədbirlərin keçirilməsini təmin edən dövlət təsisatıdır.

**1.3.** Mərkəz bilavasitə Azərbaycan Respublikasının Prezidentinə tabedir və onun qarşısında hesabat verir.

**1.4.** Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

**1.5.** Mərkəz öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət, yerli özünüidarəetmə orqanları, yerli, xarici və beynəlxalq təşkilatlarla, hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

**1.6.** Mərkəz hüquqi şəxsdir, müstəqil balansa, qanunvericiliyə uyğun olaraq istifadəsində olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

**1.7.** Mərkəzin fəaliyyəti və saxlanma xərcləri Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

**1.8.** Mərkəz Bakı şəhərində yerləşir.

### 2. Mərkəzin fəaliyyət istiqamətləri

**2.1.** Mərkəzin fəaliyyət istiqamətləri:

**2.1.1.** Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlı tarixi əşyaların və maddi mədəniyyət abidələrinin komplektləşdirilməsi, mühafizəsi, öyrənilməsi, kütləvi nümayişi və təbliği;

**2.1.2.** Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinin, Heydər Əliyev irsinin dərindən öyrənilməsi, tədqiqi, geniş təbliği, qorunub saxlanılması və hərtərəfli inkişaf etdirilməsi;

**2.1.3.** Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinin dövlət siyasətinin ayrı-ayrı sahələrində tətbiqi;

**2.1.4.** Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev irsinin öyrənilməsi ilə bağlı digər qurumlarla əməkdaşlığın qurulması və inkişaf etdirilməsi;

**2.1.5.** Azərbaycan tarixi, mədəniyyəti, Azərbaycan dilinin və digər milli sərvətlərinin beynəlxalq aləmdə tanıdılması və təbliği;

**2.1.6.** elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekologiya və iqtisadiyyatın müxtəlif sahələrinə dəstək verilməsi və onların inkişaf etdirilməsinə xidmət edən layihələrin həyata keçirilməsi;

**2.1.7.** yerli, regional və beynəlxalq tədbirlərin keçirilməsi;

**2.1.8.** Azərbaycan Respublikasının Prezidenti tərəfindən Mərkəzə həvalə olunan digər istiqamətlər.

## 3. Mərkəzin vəzifələri

**3.1.** Mərkəz bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

**3.1.1.** Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsi, azərbaycançılıq məfkurəsinin və Heydər Əliyev irsinin dərindən öyrənilməsini və tədqiqini təşkil etmək, həmin sahələrdə materialların əldə edilməsi, toplanılması, kataloqlaşdırılması, fondlarda qorunub saxlanılması, dərc edilməsi və nümayiş olunmasını təmin etmək;

**3.1.2.** Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsi, azərbaycançılıq məfkurəsini və Heydər Əliyev irsini geniş təbliğ etmək və bu istiqamətdə tədbirlər həyata keçirmək;

**3.1.3.** Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev irsinin elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekologiya, iqtisadiyyat və digər sahələrdə qorunması və inkişaf etdirilməsini təmin etmək üçün tədbirlər görmək və təkliflər hazırlamaq;

**3.1.4.** öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daimi yeniləşdirilməsini təmin etmək;

**3.1.5.** internet və digər elektron xidmətlərinin təşkili və göstərilməsini təmin etmək;

**3.1.6.** Mərkəzin maddi və maliyyə vəsaitlərinin uçotunu təşkil etmək, onların istifadəsinə nəzarət etmək, Mərkəzin fəaliyyətinin səmərəliliyini artırmaq üçün müvafiq tədbirlər görmək;

**3.1.7.** Mərkəzə ayrılan dövlət büdcəsi və digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

**3.1.8.** qanunvericiliyə uyğun olaraq dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

**3.1.9.** Mərkəzdə olan arxiv sənədlərinin müəyyən olunmuş qaydada saxlanılmasını və mühafizəsini təmin etmək; [1]

**3.1.10.** Mərkəzin fəaliyyət istiqamətlərinə aid olan məsələlər üzrə dövlət orqanları, idarə və təşkilatları, habelə beynəlxalq təşkilatlar, o cümlədən hüquqi və fiziki şəxslər tərəfindən həyata keçirilən fəaliyyəti əlaqələndirmək;

**3.1.11.** Mərkəzin sərəncamında olan dövlət əmlakını fəaliyyət istiqamətlərinə uyğun olaraq müstəqil surətdə istifadə etmək;

**3.1.12.** Mərkəzin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görmək;

**3.1.13.** Mərkəzin fəaliyyət planını hazırlamaq.

## 4. Mərkəzin hüquqları

**4.1.** Mərkəz öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

**4.1.1.** Mərkəzin fəaliyyət istiqamətlərinə uyğun olaraq təkliflər, proqramlar, planlar, tədbirlər hazırlamaq və həyata keçirmək, Azərbaycan Respublikasının Prezidentinə və aidiyyəti dövlət orqanlarına, idarə, müəssisə və təşkilatlara baxılmaq üçün təkliflər vermək;

**4.1.2.** Heydər Əliyevin fəlsəfi və dünya görüşlərinə, Heydər Əliyev irsinə aid materialların elmi, bədii, habelə kütləvi nümayiş etdirilən əsərlərdə və digər təbliğat vasitələrində tətbiqinə dair rəy vermək;

**4.1.3.** Mərkəzin fəaliyyətini təmin etmək məqsədi ilə qanunvericiliklə qadağan olunmayan fəaliyyət növləri ilə məşğul olmaq;

**4.1.4.** Mərkəzin fəaliyyəti ilə bağlı normativ hüquqi aktların layihələrini hazırlamaq və (və ya) onların hazırlanmasında iştirak etmək;

**4.1.5.** Mərkəzin fəaliyyəti ilə bağlı Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə Azərbaycan Respublikasının Prezidenti qarşısında təşəbbüslə çıxış etmək;

**4.1.6.** müvafiq beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, müvafiq beynəlxalq ittifaqlar və assosiasiyalara üzv olmaq, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

**4.1.7.** Mərkəzin fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, araşdırma, tədqiqat və təbliğat işlərini həyata keçirmək, təkliflər vermək;

**4.1.8.** Mərkəzin fəaliyyət istiqamətlərinə uyğun müxtəlif mükafatlar, Mərkəzin fəxri adlarını və təltiflərini təsis etmək;

**4.1.9.** qanunvericiliklə müəyyən edilmiş qaydada nəşrlər buraxmaq, habelə kütləvi informasiya vasitələri təsis etmək;

**4.1.10.** Mərkəzin fəaliyyət istiqamətlərinə uyğun olaraq konfrans, simpozium, muzey, sərgi, ekspozisiya və digər tədbirlər təşkil etmək;

**4.1.11.** Mərkəzin sərəncamında olan dövlət əmlakının Mərkəzin fəaliyyət istiqamətlərinə uyğun istifadəsini təmin etmək məqsədi ilə hüquqi və fiziki şəxslər ilə müstəqil surətdə müqavilələr bağlamaq;

**4.1.12.** tədbirlərin keçirilməsi, müvəqqəti və daimi xidmətlər göstərən strukturların (obyektlərin) yaradılması, özəl və dövlət qurumları ilə müqavilə əsasında birgə fəaliyyətdə iştirak, müxtəlif növ xidmətlərin göstərilməsi yolu ilə qanunvericiliyə zidd olmayan gəlir əldə etmək;

**4.1.13.** Mərkəzin vəzifələrinin yerinə yetirilməsi və hüquqlarının həyata keçirilməsi məqsədilə hüquqi şəxslər və tabeliyində olan qurumlar təsis etmək, həmin hüquqi şəxslər barəsində təsisçi (iştirakçı) funksiyalarını həyata keçirmək;

**4.1.14.** Mərkəzin vəzifələrinin yerinə yetirilməsi və hüquqlarının həyata keçirilməsi məqsədilə qrantlar, ianələr və digər əvəzsiz köçürmələri almaq, qrantlar, ianələr və təqaüdlər təsis etmək;

**4.1.15.** Mərkəzin fəaliyyət istiqamətləri üzrə digər şəxslər tərəfindən göstərilən xidmətləri və müxtəlif tədbirləri maliyyələşdirmək, maddi-texniki və təşkilati cəhətdən dəstəkləmək;

**4.1.16.** Mərkəzin fəaliyyətinə aid olan məsələlərə dair müstəqil ekspertləri və mütəxəssisləri cəlb etmək;

**4.1.17.** Mərkəzin fəaliyyət istiqamətlərinə aid olan məsələlər barədə məlumatları (sənədləri) əldə etmək üçün dövlət və yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) əldə etmək;

**4.1.18.** Mərkəzin maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidentinə təkliflər vermək;

**4.1.19.** Mərkəzin fəaliyyət istiqamətlərinə uyğun olaraq digər hüquqları həyata keçirmək.

## 5. Mərkəzin fəaliyyətinin təşkili

**5.1.** Mərkəz öz fəaliyyətini aparatı və tabeliyində olan qurumları vasitəsilə həyata keçirir.

**5.2.** Mərkəzin işçilərinin say həddi Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir.

**5.3.** Mərkəzin fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən direktor rəhbərlik edir. Mərkəzin direktoru Mərkəzə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

**5.4.** Direktorun Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən birinci müavini və bir müavini var. Direktorun müavinləri Mərkəzin direktoru tərəfindən onlara həvalə edilmiş vəzifələri yerinə yetirirlər və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

**5.5.** Mərkəzin direktoru:

**5.5.1.** Mərkəzin işini təşkil edir və ona rəhbərlik edir;

**5.5.2.** müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə Mərkəzin digər vəzifəli şəxslərinin ştat, kadr, maliyyə, istehsalat-təsərrüfat və digər məsələlər üzrə səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

**5.5.3.** Mərkəzin üzərinə düşən vəzifələrin yerinə yetirilməsi və onun hüquqlarının həyata keçirilməsi üçün zəruri tədbirlər görür;

**5.5.4.** müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Mərkəzin aparatının və tabeliyində olan qurumlarının strukturunu, ştat cədvəli və ayrılmış büdcə təxsisatı daxilində onların xərclər smetasını təsdiq edir;

**5.5.5.** müəyyən edilmiş qaydada Mərkəzin aparatının işçilərini və tabeliyində olan digər qurumların rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad edir, həmçinin digər işçilərini vəzifəyə təyin və vəzifədən azad edir;

**5.5.6.** Mərkəzin struktur bölmələrinin, tabeliyində olan qurumların əsasnamələrini və hüquqi şəxslərin nizamnamələrini təsdiq edir;

**5.5.7.** Mərkəzin işçiləri barəsində həvəsləndirmə və intizam tənbeh tədbirləri görür;

**5.5.8.** əmr və sərəncamlar formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

**5.5.9.** Mərkəzin adından etibarnaməsiz fəaliyyət göstərir, Mərkəzi təmsil edir, müvafiq beynəlxalq sənədləri imzalayır;

**5.5.10.** Mərkəzin səlahiyyətlərinə aid edilən məsələlər üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar fondların formalaşdırılması ilə bağlı təkliflər verir;

**5.5.11.** dövlət büdcəsindən ayrılmış vəsaitin səmərəli xərclənməsini təmin edir;

**5.5.12.** dövlət büdcəsindən ayrılan vəsaitlərin, büdcədənkənar xüsusi vəsaitlərin sərəncamçısı olmaqla, maliyyə vəsaitini qurumları arasında bölüşdürür, ayrılmış vəsaitlərin həddi nəzərə alınmaqla işçilərin vəzifə maaşlarına

qanunvericiliklə müəyyən edilmiş əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir;

**5.5.13.** Mərkəzdə daxili təhlükəsizliyin təminatı məsələləri ilə əlaqədar qərarlar qəbul edir;

**5.5.14.** Mərkəzin daxili intizam qaydalarını təsdiq edir;

**5.5.15.** Mərkəzin əmlakı barədə qanunvericiliyə uyğun olaraq müstəqil sərəncam verir, müqavilələr bağlayır, etibarnamələr verir, banklarda hesablaşma hesabı və digər hesablar açır;

**5.5.16.** Mərkəzin iş planlarının tərtib olunmasını təmin edir;

**5.5.17.** Mərkəzin fəaliyyətinin yaxşılaşdırılmasına dair təklifləri, Mərkəzin fəaliyyətinə dair hesabatları Azərbaycan Respublikasının Prezidentinə təqdim edir.

**5.6.** Mərkəzin direktoru öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti olaraq icrasını müavinlərindən birinə tapşıra bilər.

**5.7.** Mərkəzin direktorunun aylıq vəzifə maaşı Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir. Mərkəzin direktorunun, direktor müavinlərinin və işçilərinin aylıq vəzifə maaşları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir. [2]

**5.8.** Mərkəzdə direktordan (Direktorlar Şurasının sədri), direktorun müavinlərindən, Mərkəzin struktur bölmələrinin və tabeliyində olan qurumların rəhbərlərindən ibarət Direktorlar Şurası yaradılır. Direktorlar Şurasının üzvlərinin sayı və tərkibi direktor tərəfindən müəyyən olunur.

## 6. Mərkəzin maliyyə-təsərrüfat fəaliyyəti

**6.1**. Mərkəzin əmlakı ona təhkim edilmiş dövlət əmlakından, dövlət büdcəsindən məqsədli təyinatla ayrılan vəsaitlərdən, fəaliyyət istiqamətlərinə uyğun olaraq görülən işlərdən, göstərilən xidmətlərdən əldə edilən daxilolmalardan, qanunvericiliklə nəzərdə tutulan digər mənbələrdən daxil olan vəsaitlərdən ibarətdir.

**6.2.** Mərkəzin əmlakından bu Əsasnamədə nəzərdə tutulmuş vəzifələrinin yerinə yetirilməsi və hüquqlarının həyata keçirilməsi məqsədilə istifadə olunur. Mərkəz fəaliyyət istiqamətləri üzrə həyata keçirilən tədbirlərin maddi-texniki, hüquqi və təşkilati təminatını həyata keçirir.

**6.3.** Mərkəz öz vəzifələrini yerinə yetirmək məqsədi ilə büdcədənkənar vəsaitləri, hüquqi və fiziki şəxslərin, o cümlədən xarici hüquqi və fiziki şəxslərin, beynəlxalq təşkilatların qrant və ianələrini istifadə etməklə xüsusi fondlar yaratmaq və onlardan istifadə etmək hüququna malikdir.

**6.4.** Mərkəzin maddi-texniki bazasını torpaq sahələri, binalar, tikililər, müxtəlif qurğular, texniki vasitələr, metodiki materiallar, elmi və bədii ədəbiyyat, nəqliyyat vasitələri, maşın və avadanlıqlar, habelə başqa maddi-texniki təchizat vasitələri təşkil edir.

**6.5.** Mərkəzə təhkim edilmiş torpaq sahələri onun daimi istifadəsindədir.

**6.6.** Mərkəz əldə edilən gəlirlərdən və mülkiyyət obyektlərindən elmi və maddi bazanın inkişafı, işçilərin sosial-məişət şəraitinin yaxşılaşdırılması, habelə öz fəaliyyəti ilə bağlı digər ehtiyaclar üçün qanunvericiliyə uyğun olaraq istifadə edir.

**6.7.** Mərkəzin direktorunun əmri ilə Mərkəzin öz maliyyə vəsaitləri hesabına vəzifə maaşlarına əlavə və artırmalar müəyyən oluna, mükafatlar və digər həvəsləndirici ödənişlər verilə bilər.

## 7. Yekun müddəalar

**7.1.** Mərkəz Azərbaycan Respublikasında və xarici ölkələrdə nümayəndəliklər təsis edə bilər.

**7.2.** Mərkəzin yenidən təşkili və ləğvi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.

### FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 18 avqust 2022-ci il tarixli 1811 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 18 avqust 2022-ci il, "Xalq" qəzeti, 19 avqust 2022-ci il, № 176, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, №8, maddə 871) ilə "Heydər Əliyev Mərkəzinin Əsasnaməsi"nin 3.1.9-cu yarımbəndindən "saxlanılmasını və" sözləri çıxarılmışdır.

[2] 2 oktyabr 2019-cu il tarixli 834 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 10, maddə 1579) ilə "Heydər Əliyev Mərkəzinin Əsasnaməsi"nin 5.7-ci bəndində birinci cümlə çıxarılmışdır və ikinci cümləyə "Mərkəzin" sözündən sonra "direktorunun," sözü əlavə edilmişdir.

**Azərbaycan. - 2012.- 9 oktyabr.- S. 9.**

# “Heydər Əliyev” ordeninin təsis edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin çoxillik zəngin siyasi fəaliyyəti xalqımızın dövlətçilik tarixində müstəsna rol oynamışdır.

Müstəqil Azərbaycanın sosial-iqtisadi bünövrəsi məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində ötən əsrin 70-ci illərində qoyulmuşdur. 1969-1982-ci illərdə Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan SSRİ-nin tərkibində o zaman üçün müasir iqtisadi potensiala malik olan respublikaya çevrilmiş, ölkəmizin gələcək dövlət müstəqilliyi üçün möhkəm təməl yaradılmışdır. Sürətli iqtisadi inkişaf nəticəsində Azərbaycan İttifaq büdcəsindən dotasiya almayan, öz-özünü təmin edə bilən az sayda respublikalardan biri olmuşdur. Həmin illərdə Heydər Əliyevin səyləri ilə xalqımızın milli mənlik şüurunun, mədəniyyətinin və dilinin inkişafına güclü təkan verən tədbirlər həyata keçirilmişdir. Azərbaycan SSRİ-nin tərkibindəki üç respublikadan biri idi ki, onun Konstitusiyasında xalqın danışdığı əsas dilə - Azərbaycan dilinə dövlət statusu verilmişdi.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonrakı ilk illərdə bir-birinin ardınca hakimiyyətə gələn qüvvələrin səriştəsiz siyasəti nəticəsində ölkənin parçalanması və milli dövlətçiliyin süquta uğraması təhlükəsi yarandı. Azərbaycan vətəndaş müharibəsi astanasında idi. Ermənistanın işğalçılıq siyasəti, ölkə daxilində hökm sürən siyasi çəkişmələr Azərbaycan dövlətinin varlığını təhlükə altında qoydu. Belə bir ağır və mürəkkəb dövrdə xalqın təkidli tələbi ilə böyük siyasi təcrübəyə malik olan Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanmasına və möhkəmləndirilməsinə xidmət edən başlıca amil oldu.

1993-cü ilin iyununda Azərbaycan parlamentinin sədri seçilən Heydər Əliyev ölkədə yaranmış siyasi böhranın və hakimiyyət boşluğunun aradan qaldırılmasına nail oldu. Hərc-mərclik, özbaşınalıq hallarına, zorakılıq, silah işlətmək yolu ilə hakimiyyətə gəlmək praktikasına son qoyuldu, ictimai-siyasi sabitlik bərqərar edildi. Ölkədə peşəkar parlament yaradıldı. Bütün bu işlərin həyata keçirilməsində Heydər Əliyev həmişə xalqa arxalanmış və onun tam dəstəyini almışdır.

Heydər Əliyevin rəhbərliyi və bilavasitə iştirakı ilə hazırlanaraq qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə müasir dövlətçilik sisteminin bərqərar edilməsi üçün möhkəm hüquqi baza yaratdı. Məhkəmə islahatlarının həyata keçirilməsi, Konstitusiya Məhkəməsinin və digər mühüm təsisatların yaradılması ölkədə demokratikləşdirmə prosesinin irəliyə aparılmasında mühüm rol oynadı.

Müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi on illik dövr ərzində Heydər Əliyev ölkəmizi təhlükə və çətinliklərdən qurtararaq ardıcıl inkişaf yoluna çıxarmışdır. Bu illər ərzində dövlət idarəçiliyi mexanizmi yenidən yaradılmış, nizami ordu qurulmuş, geniş miqyaslı siyasi, hüquqi, iqtisadi, sosial və mədəni islahatlar həyata keçirilmiş, ölkə iqtisadiyyatının dinamik inkişafı təmin edilmiş, müstəqil Azərbaycan üçün böyük əhəmiyyət kəsb edən yeni neft strategiyası hazırlanaraq uğurla gerçəkləşdirilməyə başlanmışdır. Nəticə etibarilə Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət qurulmuş, vətəndaş cəmiyyətinin bərqərar edilməsi istiqamətində ciddi addımlar atılmışdır. Dövlətimiz dünya birliyində layiqli yerini tutmuş, bölgədə geosiyasi mövqelərini möhkəmləndirərək böyük beynəlxalq nüfuz qazanmışdır. Azərbaycançılıq ideyası şüurlara hakim kəsilmiş, milli birlik və həmrəylik təmin edilmişdir.

Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında müstəsna tarixi xidmətlərini nəzərə alaraq və onun xatirəsini əbədiləşdirmək məqsədilə Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. "Heydər Əliyev" ordeni təsis edilsin.

II. "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının 1992-ci il 10 noyabr tarixli Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, № 23, maddə 996; 1993-cü il, № 23, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 12 (I kitab), maddə 677) 1-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikasının aşağıdakı ordenləri təsis edilsin:

Azərbaycan Respublikasının ən yüksək təltifi – "Heydər Əliyev" ordeni;

"İstiqlal" ordeni;

Azərbaycan Respublikasının ali hərbi ordeni – "Şah İsmayıl" ordeni;

"Azərbaycan bayrağı" ordeni;

"Şöhrət" ordeni;

"Vətənə xidmətə görə" ordeni."

III. "Heydər Əliyev" ordeninin statutu və təsviri təsdiq edilsin (əlavə olunur).

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 22 aprel 2005-ci il
№ 896-IIQ

**Azərbaycan Respublikasının**
**2005-ci il 22 aprel tarixli 896-IIQ nömrəli**
**Qanunu ilə**
**TƏSDİQ EDİLMİŞDİR**

# “Heydər Əliyev” ordeninin

**S T A T U S U**

1. “Heydər Əliyev” ordeni Azərbaycan Respublikasının vətəndaşlarına aşağıdakı hallarda verilir:

1.1. Azərbaycanın tərəqqisinə, əzəmətinin və şöhrətinin artmasına töhfə verən müstəsna xidmətlərinə görə;

1.2. Vətənin müdafiəsində, Azərbaycanın dövlət mənafelərinin qorunmasında göstərilmiş mərdlik və şücaətə görə.

2. “Heydər Əliyev” ordeni Azərbaycan Respublikasının Prezidentinə onun statusuna görə verilir.

3. “Heydər Əliyev” ordeni əcnəbilərə aşağıdakı hallarda verilir:

3.1. Azərbaycan Respublikası qarşısında görkəmli xidmətlərinə görə;

3.2. Azərbaycançılıq ideyasının həyata keçirilməsində, dünya azərbaycanlılarının həmrəyliyinin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə;

3.3. Azərbaycan Respublikası ilə digər dövlətlər arasında siyasi, iqtisadi, elmi və mədəni əlaqələrin qurulmasında və inkişaf etdirilməsində xüsusi xidmətlərinə görə.

4. “Heydər Əliyev” ordeninin qılınclı ulduzu və qılınclı zənciri Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndində müəyyənləşdirilmiş qaydada verilir.

5. “Heydər Əliyev” ordeninin ulduzu döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan əvvəl taxılır.

**Azərbaycan Respublikasının**
**2005-ci il 22 aprel tarixli 896-IIQ nömrəli**
**Qanunu ilə**
**TƏSDİQ EDİLMİŞDİR**

# “Heydər Əliyev” ordeninin

## T Ə S V İ R İ

“Heydər Əliyev” ordeni ulduzdan, orden zəncirindən*, nişandan və döş nişanından* ibarətdir. [1]

“Heydər Əliyev” ordeninin ulduzu və zənciri qılınclı və qılıncsız olur.

Ordenin döşə taxılmaq üçün nəzərdə tutulan ulduzu səkkizguşəli olub gümüşdən hazırlanmışdır. Ulduzun guşələri gül ləçəkləri şəklində işlənmişdir. Ulduzun əks uclarının arasındakı məsafə 82 mm-dir.

Ulduzun üzərində çevrəsi dalğavari olan dairəvi lövhə yerləşdirilmişdir. Qılınclı ulduzda həmin lövhə ulduzun guşələrindən dördünün üzərindən keçərək çarpazlaşan iki qılıncın üstündə dayanır. Qılınclar gümüşdən hazırlanıb qızıl suyuna çəkilmişdir. Hər qılıncın uzunluğu 82 mm , eni 4 mm-dir. Qılıncların hər birinin dəstəyinə brilyant daş bərkidilmişdir.

Dalğavari çevrəli lövhənin ortasında dairəvi medalyondakı cilalanmış lövhə üzərində Heydər Əliyevin barelyefi verilmişdir. Lövhə 750 əyarlı qızıldan hazırlanmışdır. Medalyon, üzərində qırx iki brilyant daş olan daxili halqa ilə əhatə olunmuşdur. Daxili halqanı dövrələyən orta halqanın qırmızı mina çəkilmiş yuxarı hissəsində qabarıq qızılı hərflərlə “HEYDƏR ƏLİYEV” sözləri yazılmışdır, aşağı hissəsi isə rombşəkilli ornament içərisində üç ədəd brilyant daşla bəzədilmişdir, bunların arasında yaşıl mina çəkilmiş qövsvari iki zolaq vardır. Orta halqa çevrəsi dalğavari olan göy rəngli xarici halqa ilə əhatələnir, onun üzərinə üçbucaq oymalar içərisində iyirmi brilyant daş bərkidilmişdir.

“Heydər Əliyev” ordeninin boyundan asılarkən sinəyə düşən nişanı ağ mina çəkilmiş dördguşəli ornament şəklində altlıqdan ibarətdir. Ornamentin qırmızı minalı ulduzlar şəklində olan elementlərinə brilyant daşlar bərkidilmişdir.

Altlığın üstündə göy mina çəkilmiş dördguşəli ornament yerləşir. Ornamentin dörd ucunun hər birinə brilyant daş bərkidilmişdir. Altlıq və onun üstündəki ornament gümüşdən hazırlanıb qızıl suyuna çəkilmişdir.

Nişanın mərkəzi hissəsində 750 əyarlı qızıldan hazırlanmış lövhə yerləşir. Lövhənin üzərinə tünd qırmızı mina çəkilmişdir.

Lövhənin mərkəzində Heydər Əliyevin 750 əyarlı qızıldan hazırlanmış barelyefi yerləşir. Barelyef çarpazlaşdırılmış iki kvadrat şəklində olan düzgün həndəsi formalı çərçivə ilə haşiyələnmişdir. Kvadratların üstünə yüz on iki brilyant daş bərkidilmişdir. Çərçivə gümüşdən hazırlanıb qızıl suyuna çəkilmişdir.

Nişanın hündürlüyü 67 mm , eni 67 mm-dir.

Ordenin zənciri müəyyən qaydada düzülmüş on beş elementdən ibarətdir. Həmin elementlər aşağıdakılardır:

- zəncirin sağ və sol tərəflərində yerləşən, çarpazlaşdırılmış bayraqlardan ibarət olan, göy, qırmızı və yaşıl rəngli mina çəkilmiş iki bəzək lövhəsi. Lövhələrin mərkəzində Azərbaycan Respublikasının Dövlət bayrağının təsviri vardır;
- zəncirin sağ və sol tərəflərində yerləşən, ağ mina çəkilmiş iki dördguşəli ornament. Onların mərkəzində dairəvi medalyon yerləşdirilib qırmızı minalı ornamentlə haşiyələnmişdir. Medalyonun mərkəzində Heydər Əliyevin inisialları yazılmış venzel vardır. Qılınclı zəncirdə medalyonun altında çarpaz gümüş qılınclar yerləşdirilmişdir;
- zəncirin sağ və sol tərəflərində, habelə yuxarı hissəsində yerləşən göy, qırmızı və yaşıl mina ilə işlənmiş, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri olan üç lövhə.

Göstərilən elementlər 112 brilyant daşla bəzədilmiş lövhəciklər (hərəsində 7 brilyant daş olmaqla 16 lövhəcik) vasitəsilə geniş zəncirə birləşir.

Ordenin arxa tərəfinin səthi hamardır, üstündə ordenin nömrəsi həkk olunmuşdur. Paltara bərkidilmək üçün müvafiq elementi vardır.

~~Ordenin hazırlanmasında 525 əyarlı 533,29 qram gümüşdən, 999 əyarlı 3,89 qram gümüşdən, 750 əyarlı 57,42 qram qızıldan, 999 əyarlı 6,42 qram qızıldan, cəmi 0,83 karatlıq 8 brilyant daşdan, cəmi 5,34 karatlıq 224 brilyant daşdan, cəmi 1 karatlıq 67 brilyant daşdan, ümumən isə 299 brilyant daşdan istifadə olunmuşdur.~~ [2]

*"Heydər Əliyev" ordeninin döş nişanı üzərinə ağ mina çəkilmiş dördguşəli ornament şəklində altlıqdan ibarətdir. Altlığın dörd guşəsinin hər birində yerləşən səkkizguşəli ulduz formalı elementin hər birinə 1 ədəd brilyant daş bərkidilir.* [3]

*Altlığın üzərində, guşələri altlığın guşələrinə çarpaz olmaqla, göy minalı dördguşəli ornamentli lövhə yerləşdirilir. Göy minalı ornamentin dörd guşəsinin hər birinə 1 ədəd brilyant daş bərkidilir.*

*Döş nişanının mərkəzində tünd qırmızı mina ilə örtülmüş lövhə, lövhənin mərkəzində Heydər Əliyevin barelyefi yerləşir. Barelyef çarpazlaşmış, kvadratşəkilli iki çərçivə ilə haşiyələnir. Hər çərçivəyə 56 ədəd brilyant daş bərkidilir.*

*Döş nişanı 28 mm x 28 mm ölçüdədir, arxa hissəsinə seriyası və nömrəsi həkk olunur.*

*Döş nişanı paltara bərkidilmək üçün elementi olan 23 mm x 16 mm ölçülü lövhəyə halqa və ilgək vasitəsilə birləşdirilir. Lövhənin mərkəzində qabarıq hərflərlə yazılmış "HEYDƏR ƏLİYEV" sözlərindən yuxarıda və aşağıda, hər sırada 14 ədəd olmaqla, lövhənin qabarıq kənarları boyunca 28 ədəd brilyant daş bərkidilir.*

*Döş nişanına paltara bərkidilmək üçün elementi olan 24 mm x 9 mm ölçülü qəlib əlavə olunur. Qəlib Azərbaycan Respublikası Dövlət bayrağının rənglərini əks etdirən və hər birinin eni 8 mm olan üç şaquli zolaqdan ibarət lentlə örtülür. Qəlibin mərkəzinə "Heydər Əliyev" ordeninin döş nişanının formasına uyğun, Heydər Əliyevin barelyefi yerləşdirilmiş hissəsi tünd qırmızı mina ilə örtülmüş, 6 mm x 6 mm ölçülü hissə bərkidilir.*

*Döş nişanı 585 və 999 əyarlı qızıldan hazırlanır.*

*Ordenin hazırlanmasında 925 əyarlı 533,3 qram gümüşdən, 999 əyarlı 3,9 qram gümüşdən, 585 əyarlı 25 qram qızıldan, 750 əyarlı 57,4 qram qızıldan, 999 əyarlı 6,5 qram qızıldan, cəmi 0,83 karatlıq 8 brilyant daşdan, cəmi 5,3 karatlıq 224 brilyant daşdan, cəmi 1,37 karatlıq 95 brilyant daşdan, cəmi 0,23 karatlıq 116 brilyant*

*daşdan, cəmi 0,032 karatlıq 4 brilyant daşdan, ümumən 447 brilyant daşdan istifadə olunur.*

*Ordenin hazırlanmasında istifadə olunmuş qiymətli metalların və qiymətli daşların çəkisi (texnoloji proses zamanı yarana biləcək fərqlər nəzərə alınmaqla) və miqdarı ordenin əmtəə sertifikatında göstərilir.*

***“Heydər Əliyev” ordeninin döş nişanı***









## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

**1.** 3 fevral 2014-cü il tarixli **896-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 8 mart 2014-cü il, № 51)**

[1] 3 fevral 2014-cü il tarixli **896-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 8 mart 2014-cü il, № 51)** ilə birinci hissədə “**və nişandan**” sözləri “**, nişandan və döş nişanından**” sözləri ilə əvəz edilmişdir.

[2] 3 fevral 2014-cü il tarixli **896-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 8 mart 2014-cü il, № 51)** ilə on dördüncü hissə ləğv edilmişdir.

[3] 3 fevral 2014-cü il tarixli **896-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 8 mart 2014-cü il, № 51)** ilə on beşinci - iyirmi üçüncü hissələr əlavə edilmişdir.

[4] 3 fevral 2014-cü il tarixli **896-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 8 mart 2014-cü il, № 51)** ilə “Heydər Əliyev” ordeninin döş nişanının bu Qanuna əlavə olunmuş rəngli təsviri “Heydər Əliyev” ordeninin təsis edilməsi haqqında” Azərbaycan Respublikasının 2005-ci il 22 aprel tarixli 896-IIQ nömrəli Qanununa əlavə edilmişdir.

**Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında**
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev Azərbaycan tarixinin yetirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Azərbaycanın son 30 ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi, bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəlişi Heydər Əliyevin adı ilə sıx bağlıdır.

Heydər Əliyev rəhbərlik etdiyi bu dövr ərzində Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxara bilmiş, ölkənin gələcək inkişaf strategiyasını müəyyən etmiş və onun həyata keçirilməsi üçün mühüm addımlar atmışdır. Azərbaycanın 1969-cu ildən bəri yaşanan dövrü xalqımızın tarixinə Heydər Əliyev dövrü kimi əbədi həkk olunmuşdur.

Tarixi bu dövrdən etibarən başlanan Heydər Əliyev idarəetmə fəlsəfəsinin başlıca ideya-siyasi istiqaməti xalqın milli özünüifadəsinin bütün forma və vasitələrinin geniş vüsət alması, milli qürur hissinin güclənməsi və milli şüurun yüksəlişinə təkan verən sürətli inkişaf strategiyasının gerçəkləşdirilməsi ilə səciyyələnmişdir. Xalqın tarixi yaddaşının özünə qaytarılması onun qəlbində illərdən bəri sıxılıb qalmış milli dövlətçilik ideyasının gələcəkdə böyük hərəkətverici qüvvəyə çevrilməsi, müstəqil dövlətçilik ideyalarının gerçəkləşməsi üçün zəmin yaratdı.

Azərbaycanın müasir tarixində 1969-cu il respublikanın sosial-iqtisadi və mədəni inkişafında dönüş ili olmuşdur. Heydər Əliyevin rəhbərliyi altında respublikanın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında yorulmaz fəaliyyət, misilsiz təşəbbüskarlıq və nəhəng enerji 70-ci illərin bariz əlamətinə çevrildi. Bu illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Kənd təsərrüfatının inkişafında böyük nailiyyətlər əldə edildi. Sənayenin dinamik yüksəlişini təmin etmək üçün iqtisadiyyatda struktur islahatları həyata keçirildi. Yeni sənaye sahələri yaradıldı, sənayenin qabaqcıl sahələrində, ilk növbədə, maşınqayırma kompleksində, kimya və neft kimyasında, əlvan metallurgiyada texniki cəhətdən yeniləşmə və yenidənqurma işləri, neft emal edən sənayenin, energetikanın, qara metallurgiyanın və dağ-mədən sənayesinin genişləndirilməsi prosesi başlandı. Azərbaycan bu illərdə neft məhsulları, neft avadanlığı, polad borular, əlvan metallar, sintetik kauçuk, elektrik mühərrikləri, tikinti materialları, məişət kondisionerləri, avtomobil hissələri, mineral gübrələr, çini-saxsı, xalça və xalçaçılıq məmulatı istehsalı üzrə keçmiş SSRİ-də aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda buraxılan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Əslində, Azərbaycanın dövlət suverenliyi və müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən

inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş iqtisadi potensiala əsaslanır.

Dinamik inkişaf edən iqtisadiyyatı yüksək ixtisaslı kadrlarla təmin etmək üçün Azərbaycanda orta ixtisas və ali təhsil məktəbləri şəbəkəsi nəzərəçarpacaq dərəcədə genişləndirildi, hər il Moskvanın, eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin aparıcı elm və təhsil ocaqlarına gənclərin göndərilməsi həmin illərdə bir ənənəyə çevrildi.

Azərbaycanda Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılması, gənc və yeniyetmə azərbaycanlı oğlanların həmin məktəbə, habelə respublikadan kənarda ali hərbi məktəblərə cəlb olunması Azərbaycan üçün peşəkar hərbi kadrlar hazırlanması işinə böyük təkan verdi. Beləliklə, Heydər Əliyevin uzaqgörənliyi sayəsində gələcəkdə müstəqil Azərbaycanın Milli Ordusunun formalaşması üçün kadr probleminin həlli yolunda mühüm addım atıldı.

Azərbaycanın elmi, mədəniyyəti və incəsənəti həmin illərdə böyük yüksəliş dövrü yaşadı. Respublikanın paytaxtı Bakı şəhərinin, digər şəhər və rayonların inkişafı və abadlaşması sahəsində kompleks tədbirlər həyata keçirildi.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ilk illərdə ölkədə hakimiyyət uğrunda başlanan silahlı mübarizə, hakimiyyətlərin bir-birini əvəz etməsi və çoxhakimiyyətliliyin hökm sürməsi müstəqil dövlətçiliyə ağır zərbələr vurdu. Ölkədə yaranmış ictimai-siyasi xaos, anarxiya, zorakılıq hallan, milli və vətəndaş qarşıdurmasının kəskinləşməsinə və hakimiyyətin tam iflasına rəvac verirdi. Nəticədə, 1993-cü ilin yayında Azərbaycan dövlətçiliyi böhran və məhv olmaq təhlükəsi qarşısında qaldı, ölkə vətəndaş müharibəsi və parçalanma həddinə gətirildi. Belə bir vəziyyətdə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev öz böyük siyasi təcrübəsi və müdrikliyi ilə Azərbaycanı bu təhlükəli vəziyyətdən çıxarmaq üçün gərgin işə başladı. İlk növbədə, hakimiyyət vakuumu aradan qaldırıldı, respublikanın müxtəlif bölgələrində baş qaldırmış destruktiv qüvvələr xalqın fəal köməyi ilə zərərsizləşdirildi, vətəndaş müharibəsinin qarşısı alındı. Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə qəsdlər təşkil edən cinayətkar ünsürlər cəmiyyətdən təcrid edildi. 1994-cü ilin mayında Ermənistan-Azərbaycan müharibəsində atəşkəsə nail olundu. Heydər Əliyev Azərbaycan həqiqətlərini, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini dünya ictimaiyyətinə çatdıra bildi.

Azərbaycan yalnız Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra özünün geosiyasi imkanlarım gerçəkləşdirməyə başlamışdır. Heydər Əliyevin siyasi zəkası sayəsində Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi aradan qaldırılmışdır. Dünya siyasət meydanında cərəyan edən proseslərə təsir baxımından Azərbaycan rəhbəri həmişə öz sözü, öz çəkisi, öz sanbalı ilə seçilmişdir.

Ayrı-ayrı şəxslərə və siyasi qruplaşmalara xidmət edən silahlı birləşmələr Ali Baş Komandan Heydər Əliyevin məqsədyönlü və qətiyyətli siyasəti nəticəsində ləğv edildi, Milli Ordunun formalaşdırılması, Azərbaycanın nizami silahlı qüvvələrinin yaradılması ilə bağlı təxirəsalınmaz tədbirlər görüldü, orduda kütləvi fərarilik hallarına son qoyuldu, hərbi intizam möhkəmləndirildi. Bu gün Azərbaycanın suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü qorumağa tam qadir olan orduya malik olması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında göstərdiyi misilsiz xidmətlərdən biri sayıla bilər.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə əsl dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı.

Azərbaycanın daxilində yaranmış sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan istifadə edərək, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsi imzalandı. Onun gerçəkləşdirilməsi Heydər Əliyev tərəfindən işlənib hazırlanmış və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Heydər Əliyev öz neft strategiyasının əsas mənasını Azərbaycanın zəngin təbii sərvətlərindən xalqın rifahı naminə daha da səmərəli istifadə etməkdə görürdü. Azərbaycanın iqtisadi suverenliyini əks etdirən ilk beynəlxalq neft müqaviləsi ölkə iqtisadiyyatının dinamik inkişafının əsasını qoydu və bu gün onun praktiki nəticələri göz qabağındadır. Azərbaycanın iri beynəlxalq layihələrdə iştirakı, Böyük İpək Yolunun bərpası, nəqliyyat dəhlizlərinin Azərbaycan ərazisindən keçməsi Heydər Əliyev neft strategiyasının həyata keçirilməsinin bəhrəsidir.

Heydər Əliyevin fəaliyyətində iqtisadi islahatlar, bazar iqtisadiyyatının bərqərar olması, iqtisadi inkişafın təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi ardıcıl prioritet sahələr olmuşdur.

Müstəqil Azərbaycanın ilk Konstitusiyasının müəllifi olan Heydər Əliyev demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır.

Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

Azərbaycan Heydər Əliyevin fəal diplomatiyası nəticəsində dünyanın demokratik dövlətlərinin və aparıcı ictimai təşkilatlarının ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişməsinə nail ola bilmişdir. Heydər Əliyevin xarici siyasətinin əsasım sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil etmişdir.

Heydər Əliyevin formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada yerini müəyyən etmiş, milli dövlətçiliyimizin ideya əsasını təşkil edərək, dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaratmışdır. Azərbaycan ziyalısını son yüzilliklərdə ən ciddi bir şəkildə düşündürən milli dirçəliş problemləri bütöv şəkildə Heydər Əliyevin həmin illərdəki fəaliyyəti ilə strateji dövlət siyasətinə, elmdən, sosiologiyadan və fəlsəfədən əməli siyasət müstəvisinə keçmişdir.

Azərbaycanda dövlətçilik ənənələrinin XX əsrin sonlarında bərpa edilib zənginləşdirilməsi, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla

irəliləməsi, onun beynəlxalq nüfuzunun sürətlə artması Heydər Əliyevin səmərəli fəaliyyəti sayəsində mümkün olmuşdur. Heydər Əliyev öz müdrik rəhbərliyi, siyasi uzaqgörənliyi, qətiyyəti və əzmkarlığı ilə zəmanəmizin görkəmli siyasi xadimi kimi tanınmış, Azərbaycan xalqının ümummilli liderinə çevrilmişdir. Azərbaycan Respublikasının hərtərəfli inkişafı üçün onun hazırladığı strateji istiqamətlər hələ uzun illər müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi və gücləndirilməsi, iqtisadi qüdrətinin artırılması, xalqımızın layiq olduğu xoşbəxt həyata qovuşması işinə xidmət edəcəkdir.

Bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş Heydər Əliyev öz titanik fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Xalq da heç vaxt ondan öz dəstəyini əsirgəməmişdir. Xalqın Heydər Əliyevə göstərdiyi böyük etimad və ehtiram hissləri müdrik rəhbərin dəfn mərasimində də bir daha bütün dünyaya əyani şəkildə nümayiş etdirildi. Bu, milyonlarla insanın öz rəhbərinə bəslədiyi səmimi hisslərin misli görünməmiş təzahürü idi.

Dəfn mərasimindən dərhal sonra ölkə vətəndaşları öz yığıncaqlarında, kütləvi informasiya vasitələrində, müxtəlif tədbirlərdə ümummilli lider Heydər Əliyevin xatirəsini əbədiləşdirməklə bağlı çoxsaylı müraciətlər etdi. Müraciətlərə baxılması üçün Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2003-cü il tarixli Sərəncamı ilə Dövlət Komissiyası yaradıldı. Dövlət Komissiyası Azərbaycan Respublikası Milli Məclisinin, ictimai qurumların, qeyri-hökumət təşkilatlarının, beynəlxalq təsisatların, ölkə vətəndaşlarının çoxsaylı müraciətlərini nəzərdən keçirərək, öz təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmişdir.

Müasir Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin Azərbaycan tarixindəki misilsiz xidmətlərini nəzərə alaraq, onun xatirəsini əbədiləşdirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatı təsis edilsin. Azərbaycan Respublikasının Nazirlər Kabineti Heydər Əliyev Mükafatının Əsasnaməsini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

2. Bakı və Naxçıvan şəhərlərində "Heydər Əliyev" xatirə memorial kompleksləri yaradılsın. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, respublikanın müvafiq yaradıcılıq ittifaqları ilə birlikdə komplekslərin layihələrinin müsabiqəsini keçirsin və üç ay ərzində təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikasının "Heydər Əliyev" ordeninin təsis edilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun.

4. Azərbaycan Ali Hərbi Məktəbinə Heydər Əliyevin adı verilsin.

5. Bakı Beynəlxalq Aeroportuna Heydər Əliyevin adı verilsin.

6. Bakı Dərin Özüllər Zavoduna Heydər Əliyevin adı verilsin.

7. Respublika sarayına Heydər Əliyevin adı verilsin.

8. Bakı şəhərindəki İdman-Konsert Kompleksinə Heydər Əliyevin adı verilsin.

9. Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində küçə və meydanlardan birinə Heydər Əliyevin adı verilsin.

10. Azərbaycanın şəhər və rayonlarında küçə və meydanlardan birinə Heydər Əliyevin adı verilsin.

11. Heydər Əliyevin şərəfinə platin, qızıl və gümüş xatirə sikkələri buraxılsın.

12. Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin adının əbədiləşdirilməsi ilə əlaqədar olaraq bir sıra özəl qurum, şirkət və qeyri-hökumət təşkilatları tərəfindən görülmüş tədbirlər, o cümlədən Bakı-Tbilisi-Ceyhan ixrac boru neft kəmərinə, "Lider" qazma qurğusuna Heydər Əliyevin adının verilməsi, ictimai əsaslarla Heydər Əliyev Fondunun yaradılması dəstəklənsin.

13. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

14. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 10 mart 2004-cü il
№ 38

**Heydər Əliyev adına Hərbi Litseyin yaradılması haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini əbədiləşdirmək, Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün hərbi kadr hazırlığı sistemini təkmilləşdirmək və Milli Ordunun peşəkar kadrlara olan tələbatının ödənilməsi işini yaxşılaşdırmaq məqsədi ilə **qərara alıram:**

1. Cəmşid Naxçıvanski adına hərbi litseyin Naxçıvan filialı ləğv edilsin və onun əsasında Heydər Əliyev adına hərbi litsey yaradılsın.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bir ay müddətində Heydər Əliyev adına hərbi litseyin Əsasnaməsinin layihəsini hazırlayıb təsdiq etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 27 fevral 2004-cü il
№ 108

# Dövlət gənclər siyasəti haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan gənclərinin təşkilatlanaraq ümummilli problemlərin həlli uğrunda mübarizəyə başlaması XIX əsrin sonlarına təsadüf edir. Bu dövrdə bütün dünyada gedən ictimai-siyasi proseslər Azərbaycanda gənclər hərəkatının ümumi strategiyası və ideologiyasının formalaşmasına təkan verərək gəncliyin həyatında dərin iz buraxmışdır. Bununla yanaşı o zaman Azərbaycanda yaranmış siyasi vəziyyətin, mədəni və ictimai-siyasi mühitin də Azərbaycan gənclərinə güclü təsiri olmuşdur. Azərbaycanda təşəkkül tapmış yeni tipli məktəb, demokratik mətbuat və dünyəvi teatr gənclərin milli-siyasi şüurunun inkişafında müstəsna rol oynamışdır. Avropada və Rusiyada təhsil almış azərbaycanlı gənclərin mədəni və ictimai-siyasi həyatda böyük fəallığı da həmin dövrün səciyyəvi cəhətlərindəndir.

Hələ 1902-ci ildə "Müsəlman gənclik təşkilatı" ətrafında birləşən Azərbaycan gəncliyi sonralar Rusiya imperiyasının və Sovet İttifaqının tərkibində olmaqla mövcud geosiyasi məkanın tələbləri çərçivəsində fəaliyyət göstərərək böyük inkişaf yolu keçmişdir. Azərbaycan gəncləri XX əsrin əvvəllərində başlanmış və 1918-ci ildə Azərbaycan xalq Cümhuriyyətinin yaranması ilə nəticələnmiş milli-azadlıq hərəkatının aparıcı qüvvələrindən olmuşdur.

XX əsrdə Azərbaycanda digər sahələrdə olduğu kimi, ədəbiyyat və mədəniyyətdə əldə edilmiş uğurlarda gənclərin böyük əməyi olmuşdur. Böyük yazıçı və dramaturqumuz Cəfər Cabbarlı öz ilk pyesini 16-17 yaşlarında yazmışdır. 29 yaşında siyasi repressiya qurbanı olmuş Mikayıl Müşfiq Azərbaycan poeziyasının ən görkəmli simalarından biri kimi tanınmışdır. Səməd Vurğun və Süleyman Rüstəmin hələ gənclik illərində yaratdıqları poetik nümunələr Azərbaycan ədəbiyyatının qızıl fonduna həmişəlik daxil olmuşdur. Dahi bəstəkar Üzeyir Hacıbəyov 23 yaşında yaratdığı "Leyli və Məcnun" operası ilə təkcə Azərbaycanda deyil, bütün müsəlman şərqində opera sənətinin əsasını qoymuşdur. Cəmi 23 il ömür sürmüş Asəf Zeynallı Azərbaycan musiqi mədəniyyəti tarixinə romans, simfonik musiqi və sair kimi bir sıra yeni janrların ilk nümunələrini yaratmış böyük bəstəkar kimi daxil olmuşdur. Görkəmli bəstəkar Qara Qarayev də bu gün sevə-sevə dinlədiyimiz ilk simfonik əsərlərini məhz 20-25 yaşlarında yazmışdır. Onun öz həmyaşıdı Cövdət Hacıyevlə birlikdə 27 yaşında yazdığı "Vətən" operası Azərbaycanda ilk SSRİ Dövlət Mükafatına layiq görülmüş əsərlərdəndir.

Yetmiş ilə yaxın bir müddətdə Ümumittifaq komsomol təşkilatının tərkib hissəsi olan Azərbaycan gənclər təşkilatı cəmiyyətimizin həyatında fəal rol oynamışdır.

Azərbaycan gəncləri 1941-1945-ci illər müharibəsində böyük qəhrəmanlıq və şücaət nümayiş etdirmişlər. Alman faşizminə qarşı mübarizədə Azərbaycandan 130 gənc Sovet İttifaqı qəhrəmanı adına layiq görülmüşdür. Onlardan iki dəfə Sovet İttifaqı

qəhrəmanı Həzi Aslanovun, ilk azərbaycanlı Sovet İttifaqı qəhrəmanı İsrafil Məmmədovun, qvardiya polkovniki Adil Quliyevin, qvardiya serjantı Gəray Əsədovun, məşhur partizan Mehdi Hüseynzadənin, sonralar "iki cəbhənin qəhrəmanı" adı ilə tanınmış akademik Ziya Bünyadovun və başqalarının döyüş rəşadəti bugünkü gənclərimiz üçün əsl qəhrəmanlıq nümunəsidir.

Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsində gənclərin böyük xidməti olmuşdur. Sovet imperiyasına qarşı mübarizənin, o cümlədən Qarabağ hadisələri ilə bağlı təşəkkül tapmış xalq hərəkatının ön sıralarında gənclərimiz getmişlər. 1988-ci ildə erməni ekstremistlərinin Azərbaycana qarşı başladıqları hərbi təcavüzü dəf etmək üçün ilk özünümüdafiə dəstələrinin yaradılmasında və fəaliyyət göstərməsində gənclərin böyük xidmətləri olmuşdur. 1990-cı il yanvarın 19-20-də sovet qoşunlarının Bakıda və respublikanın digər şəhər və rayonlarında törətdikləri qanlı hadisələrin qurbanları - ilk azadlıq şəhidləri də əsasən gənclər oldular.

1991-1993-cü illərdə respublikada gənclərin müxtəlif təşkilatları meydana çıxmağa başladı. O zaman respublikada hökm sürən hərc-mərclik şəraitində təşəkkül tapmış gənclər təşkilatlarının çoxunda siyasiləşmə, populizm meylləri özünü büruzə verdi. Bu təşkilatların bir çoxu o dövrdə fəaliyyət göstərən müxtəlif yönlü siyasi partiya və qurumların təsiri altına düşdü. Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi demokratik dövlət quruculuğu prosesinin həyata keçirilməsi vəzifələri gənclərin ayrı-ayrı siyasi partiya və qurumların deyil, ümummilli dövlət mənafeləri əsasında səfərbər olunması, vahid gənclər siyasətinin hazırlanıb həyata keçirilməsi zərurətini ortaya atdı.

Dünyada, o cümlədən Azərbaycanda baş verən ictimai-siyasi hadisələr dəyişdikcə, gənclər qarşısında duran problemlər və onların həlli yolları da dəyişməyə başlamışdır. Məhz buna görə də üzümüzə gələn yeni əsrdə xalqımızın problemlərini müasir dünya kontekstində həll edə bilmək üçün Azərbaycan gənclərinin yenidən təşkilatlanması vacib idi. Bu məqsədlə müstəqil Azərbaycan Respublikasında gənclər hərəkatını əlaqələndirmək üçün 1994-cü il iyulun 26-da Azərbaycan respublikası prezidentinin fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı. Gənclər və idman nazirliyi yaradıldıqdan sonra dövlət gənclər siyasəti sahəsində mühüm işlər həyata keçirilmiş, nazirliyin yerli strukturları formalaşmış, gənc nəslin mənəvi tərbiyəsi və fiziki inkişafı, hüquqlarının müdafiəsi, onların beynəlxalq qurumlarda iştirakı və gənclər təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi sahəsində lazımi tədbirlər görülmüş, bir sıra dövlət proqramları hazırlanmışdır.

1996-cı il fevralın 2-də müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunun keçirilməsi respublikanın həyatında müstəsna əhəmiyyətə malik bir hadisə oldu. Forum müstəqil Azərbaycan Respublikasının qarşısında duran mühüm vəzifələrin həyata keçirilməsində gənclərin fəal iştirak etməyə hazır olduğunu nümayiş etdirdi və gənclərlə işin nəzərəçarpacaq dərəcədə canlanmasına səbəb oldu. 1997-ci il fevralın 1-də isə Azərbaycan Respublikası prezidentinin forum nümayəndələrinin bir qrupu ilə görüşündə forumdan keçən bir il ərzində görülmüş işlər təhlil olundu və gəncliklə bağlı əsas problemlərin həlli yolları müəyyən edildi. Respublika prezidentinin elə həmin gün imzaladığı sərəncamla fevralın 2-si Azərbaycan gəncləri günü elan edildi.

1999-cu ilin başlanğıcı da Azərbaycan gəncləri üçün əlamətdar oldu. Mart ayının 2-3-də Azərbaycan gənclərinin ikinci forumu keçirildi. O, birinci forumdan keçən üç il ərzində görülmüş işlərə yekun vurmaqla yanaşı, müstəqil dövlət quruculuğu yolunda gənclərin üzərinə düşən böyük vəzifələri müəyyən etdi, respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şəraitin yaradılması, dövlət orqanlarının diqqətini gənclik problemlərinin həllinə yönəltməklə bağlı tövsiyələr verdi.

Bununla yanaşı, dövlət gənclər siyasətinin həyata keçirilməsi sahəsində həllini gözləyən bir sıra problem və məsələlər mövcuddur. Uşaq və gənclərlə işləyən kadrların hazırlanması, gənclərin həyatında baş verən proseslərin elmi şəkildə öyrənilməsi günün vacib məsələlərindəndir. Ayrı-ayrı dövlət hakimiyyəti və idarəetmə orqanlarının gənclərlə iş üzrə əlaqəli və məqsədyönlü fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmalıdır. Gənclərin daha geniş təbəqələrinin dövlət idarəetmə işlərinə cəlb olunması sahəsində əlavə tədbirlərin görülməsinə və bunun üçün lazımi maliyyə vəsaitinin ayrılmasına ehtiyac vardır. Ölkə əhalisinin yarıdan çoxunu təşkil edən uşaq, yeniyetmə və gənclərin üzləşdikləri problemləri həll etmək, onları yeni dövrün tələblərinə uyğun hazırlamaq kompleks tədbirlərin həyata keçirilməsini zəruri edir.

Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsini təmin etmək və dövlət orqanlarının diqqətini gənclərlə bağlı problemlərin həllinə yönəltmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilsin.

2. Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin nəzdində gənclərin problemləri üzrə elmi araşdırmalar mərkəzi yaradılsın.

3. Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi gənclərin problemləri üzrə elmi araşdırmalar mərkəzinin əsasnaməsini bir ay müddətində hazırlayıb təsdiq olunmaq üçün Nazirlər Kabinetinə təqdim etsin.

4. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi dövlət gənclər siyasətinin həyata keçirilməsinin gedişi haqqında hər təqvim ilinin sonunda Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına arayış təqdim etsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin və dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planının yerinə yetirilməsinə nəzarət etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**

**Bakı şəhəri, 29 iyul 1999-cu il № 169**

## Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Elmi və mədəni tərəqqinin müstəqil Azərbaycanın gələcəyi üçün müstəsna əhəmiyyətini nəzərə alaraq istedadlı gənclərə Azərbaycan Respublikası Prezidentinin şəxsi himayəsini, onların yaradıcılıq potensialını inkişaf etdirmək üçün dövlət qayğısını təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycanın gənc istedadlarının “Qızıl kitabı” təsis edilsin. Gənc istedadların adları “Qızıl kitaba” Azərbaycan Respublikası Prezidentinin qərarı ilə yazılsın.

2. Azərbaycan Respublikasının Prezidenti yanında “Gənc İstedadlar Fondu” təsis edilsin.

3. “Qızıl kitab”a adları yazılmış gənc istedadlara təqdim etmək üçün xüsusi təqaüd təsis edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının humanitar siyasət şöbəsi Azərbaycan Elmlər Akademiyası, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi və respublikanın yaradıcı təşkilatları ilə birlikdə bir ay müddətində “Gənc İstedadlar Fondu”nun əsasnaməsini və İdarə heyətinin tərkibini, habelə gənc istedadların inkişafı üzrə dövlət proqramının layihəsini hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

5. Bu Fərmandan irəli gələn maliyyə xərclərinin ödənilməsi Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondu hesabına təmin edilsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**

**Bakı şəhəri, 22 iyun 1996-cı il**

**Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

Azərbaycan Respublikası Milli Məclisinin 1994-cü il 26 iyul tarixli 861 nömrəli Qərarına müvafiq olaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirinə tapşırılsın ki, on gün müddətində nazirliyin funksiyalarını, hüquq və vəzifələrini əks etdirən Əsasnaməsini və strukturunu hazırlayıb müəyyən olunmuş qaydada Azərbaycan Respublikası Prezidentinə təqdim etsin.

2. Müəyyən edilsin ki, Əsasnamə nazirliyin aşağıdakı başlıca fəaliyyət istiqamətlərini əhatə etməlidir:

- Azərbaycanın sosial, iqtisadi və mədəni inkişafının ümummilli strateji siyasətinə uyğun gənc nəslin tərbiyəsi;

- Gənclərlə iş sahəsində cəmiyyətin demokratik inkişafı tələblərinə cavab verən siyasətin həyata keçirilməsi;

- Gənclərin qüvvə və bacarıqlarının, yaradıcılıq imkanlarının milli dövlət quruculuğu vəzifələrinin yerinə yetirilməsinə, ölkədə həyata keçirilən islahatlar proqramlarının gerçəkləşdirilməsinə səfərbər olunması;

- Gənclər arasında ümumbəşəri və milli dəyərlərin təbliğinin təmin edilməsi;

- Gənclərin yüksək sosial, mənəvi və sağlam fiziki inkişafını təmin edən bütün fəaliyyət sahələrinin istiqamətləndirilməsi;

- Gənclər arasında Azərbaycanın tarixi və mədəni irsini yaymaqla, onların vətənpərvərlik, Vətənə sədaqət, müstəqəlliyimizin, dövlətçiliyimizin, torpaqlarımızın müdafiəsinə daimi hazırlıq ruhunda tərbiyə edilməsi;

- Gənclər arasında işsizliyin aradan qaldırılması üçün başqa dövlət orqanları ilə birgə fəaliyyət göstərməsi;

- Aztəminatlı ailələrdəki uşaqların və yetim uşaqların sosial problemlərinin həllinə dair dövlət proqramının həyata keçirilməsinə yaxından kömək göstərilməsi;

- Hamılıqla qəbul edilmiş beynəlxalq hüquq sənədlərində əksini tapmış uşaqların hüquqlarının müdafiəsi üçün yönəldilmiş tədbirlərin həyata keçirilməsi;

- Bazar iqtisadiyyatı mühitində gənclərin sahibkarlığa cəlb edilməsi sahəsində başqa dövlət idarəetmə orqanlarının işinin əlaqələndirilməsi;

- Gənclər təşkilatlarının formalaşmasında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq iştirak edilməsi, onların fəaliyyətinin əlaqələndirilməsi;

- Gənclərin problemləri ilə bağlı beynəlxalq tədbirlərdə onların fəal iştirakına kömək göstərilməsi;

- Azərbaycan Respublikası bədən tərbiyəsi sahəsində milli proqramın həyata keçirilməsi;

- Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə əsaslanan sağlam həyat tərzinin əhali arasında aşılanmasının təmin edilməsi, bədən tərbiyəsinin geniş təbliğinin təşkil edilməsi;

- Əhali, xüsusilə böyüməkdə olan gənc nəsil arasında idmanın və bədən tərbiyəsinin kütləviliyinin təmin edilməsi məqsədilə digər dövlət orqanları və ictimai təşkilatlarla birlikdə onların maddi texniki bazasının inkişaf etdirilməsi;

- Azərbaycanın beynəlxalq idman əlaqələrinin genişlənməsinə köməklik göstərilməsi.

3. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə tapşırılsın ki, üç ay ərzində gənclərlə iş sahəsində milli siyasət konsepsiyasını və əhalinin fiziki tərbiyə proqramını hazırlayıb, təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinə tapşırılsın ki, nazirliyin maliyyə və maddi-texniki təchizatı üçün Azərbaycan Respublikası Milli Məclisinin 1994-cü il 26 iyul tarixli 861 nömrəli qərarından irəli gələn məsələləri həll etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər Əliyev**

**Bakı şəhəri, 26 iyul 1994-cü il**

# Rəsmi sənədlər

## 2023

**“Heydər Əliyevin 100 illiyi (1923-2023)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə** [Mətn]: Azərbaycan Respublikasının Qanunu, 11 aprel 2023-cü il //Azərbaycan.- 2023.-27 aprel.- S.2.

http://www.anl.az/down/meqale/azerbaycan/2023/aprel/846877(meqale).pdf

**“Heydər Əliyevin 100 illiyi (1923-2023)” Azərbaycan Respublikasının yubiley medalının təsviri** [Mətn]: Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli Qanunu ilə təsdiq edilmişdir //Azərbaycan.- 2023.- 27 aprel.- S.2.

http://www.anl.az/down/meqale/azerbaycan/2023/aprel/846881(meqale).pdf

## 2022

**Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında** [Mətn]: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 sentyabr 2022-ci il //Azərbaycan.- 2022.- 30 sentyabr.- S.1. //Azərbaycan müəllimi.- 2022.- 30 sentyabr.- S.2. //Ədəbiyyat qəzeti.- 2022.- 1 oktyabr.- S.2.

http://www.anl.az/down/meqale/azerbaycan/2022/sentyabr/816491.htm

**Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında** [Mətn]: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 28 noyabr 2022-ci il //Azərbaycan.- 2022.- 29 noyabr.- S.1. //Azərbaycan müəllimi.- 2022.- 2 dekabr.- S.2.

http://www.anl.az/down/meqale/azerbaycan/2022/noyabr/825616(meqale).pdf

## 2013

**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**, 21 yanvar 2013-ci il /İ.Əliyev //Azərbaycan . - 2013.- 22 yanvar.- S.1.

http://www.anl.az/down/meqale/azerbaycan/2013/yanvar/290080.htm

## 2012

**Heydər Əliyev Mərkəzinin Əsasnaməsi: Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir** // Yeni sənədlər: "Qanun" jurnalının bülleteni.- 2012.- №10.-S.81-87; Azərbaycan.- 2012.-9 oktyabr.- S. 1.

https://e-qanun.az/framework/24411
http://anl.az/el/emb/H.Aliyev/senedler/9_oktyabr_2012.pdf

**"Heydər Əliyev Mərkəzinin Əsasnaməsi"nin təsdiq edilməsi haqqında:** Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr 2012-ci il // Yeni sənədlər: "Qanun" jurnalının bülleteni.- 2012.- №10.- S.81; Azərbaycan. - 2012.- 9 oktyabr.- S. 9.

http://anl.az/el/emb/H.Aliyev/senedler/8_oktyabr_2012_ferman.pdf

## 2009

**Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 20 sentyabr tarixli 628 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatının Əsasnaməsi"ndə dəyişikliklər edilməsi haqqında:** Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 10 aprel 2009-cu il [Mətn] //Azərbaycan Respublikasının Qanunvericilik toplusu. - 2009. - №4.- Maddə 224.

http://anl.az/el/emb/H.Aliyev/senedler/10_aprel_2009.pdf

**"Heydər Əliyev Mərkəzinin Nizamnaməsi:** Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 oktyabr tarixi 161 nömrəli Fərmanı ilə təsdiq edilmişdir [Mətn] //Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2009.- №10.- Maddə 774.

http://anl.az/el/emb/H.Aliyev/senedler/6_oktyabr_2009.pdf

**"Heydər Əliyev Mərkəzinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında:** Azərbaycan Respublikası Prez identinin Fərmanı, 6 oktyabr 2009-cu il [Mətn] //Azərbaycan Respublikasının Qanunvericilik toplusu. - 2009. - №10. - Maddə 774.

http://anl.az/el/emb/H.Aliyev/senedler/6_oktyabr_2009_ferman.pdf

## 2008

**Azərbaycan xalqının ümummillı lideri Heydər Əliyevin 85 illik yubileyi haqqında** : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı; 11 mart 2008-ci il //Azərbaycan . - 2008.- 12 mart. - S. 1.

https://e-qanun.az/framework/13706

## 2007

**Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatının Əsasnaməsi:** Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 20 sentyabr tarixi 628 nömrəli nömrəli Fərmanı ilə təsdiq edilmişdir [Mətn] //Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2007. - № 9. - Maddə 866.

http://anl.az/el/emb/H.Aliyev/senedler/20_sentyabr_2007.pdf

**Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatı Komissiyasının tərkibinin müəyyən edilməsi:** Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 14 noyabr 2007-ci il [Mətn] //Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2007.- №11. - Maddə 1099.

https://e-qanun.az/framework/29714

**"Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatının Əsasnaməsi"nin təsdiq edilməsi haqqında:** Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 20 sentyabr 2007-ci il [Mətn] //Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2007.- №9. - Maddə 866.

https://e-qanun.az/framework/13566

**"Heydər Əliyev Mərkəzi"nin yaradılması ilə bağlı əlavə tədbirlər haqqında:** Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 yanvar 2007- cı il [Mətn] //Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2007.- №1 .- Maddə 35.

https://e-qanun.az/framework/12710

## 2006

**"Heydər Əliyev Mərkəzinin Nizamnaməsi"nin yaradılması haqqında:** Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2006-cı il [Mətn] //Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2006.- №12.- Maddə 1144.

http://anl.az/el/emb/H.Aliyev/senedler/29_dekabr_2006.pdf

**"Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasının Döyüş Bayrağı haqqında Əsasnamə"nin və "Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasının Döyüş Bayrağının təsviri"nin təsdiq edilməsi barədə**: Azərbaycan Respublikası Prezidentinin fərmanı [Mətn] /İ. Əliyev //Azərbaycan . - 2006.- 25 mart.- S.4.

http://anl.az/el/emb/H.Aliyev/senedler/2006_24_mart.pdf

**Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin emblemi haqqında Əsasnamə**: Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 24 mart tarixli fərmanı ilə təsdiq edilmişdir [Mətn] /İ.Əliyev. //Azərbaycan . - 2006.- 25 mart.- S.4.

http://anl.az/el/emb/H.Aliyev/senedler/2006_24_mart_esasname.pdf

## 2005

**"Heydər Əliyev" ordeninin təsis edilməsi haqqında: Azərbaycan Respublikasının Qanunu**, 22 aprel 2005-ci il //Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2005.- 4.- Maddə 291.

http://anl.az/el/emb/H.Aliyev/senedler/22_aprel_2005.pdf

**"Heydər Əliyev" ordeninin statusu:** Azərbaycan Respublikası Prezidentinin 2005-cu il 22 aprel tarixi 896-IIQ nömrəli nömrəli Qanunu ilə təsdiq edilmişdir [Mətn] //Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2005.- 4.- Maddə 291.

http://anl.az/el/emb/H.Aliyev/senedler/22_aprel_2005_status.pdf

**"Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasına Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin adının verilməsi barədə"** Azərbaycan Respublikası Prezidentinin Fərmanı [Mətn] //Azərbaycan . - 2005.- 22 dekabr.

http://anl.az/el/emb/H.Aliyev/senedler/2005_20_dekabr.pdf

**"Heydər Əliyev" ordeninin təsviri:** Azərbaycan Respublikası Prezidentinin 2005-cu il 22 aprel tarixi 896-IIQ nömrəli nömrəli Qanunu ilə təsdiq edilmişdir [Mətn] //Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2005.- 4.- Maddə 291.

http://anl.az/el/emb/H.Aliyev/senedler/22_aprel_2005_orden.pdf

## 2004

**Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında:** Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 10 mart 2004-cu il [Mətn] //Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2004.- №3. - Maddə 139.

http://anl.az/el/emb/H.Aliyev/senedler/10_mart_2004.pdf

**Heydər Əliyev adına Hərbi Litseyin yaradılması haqqında:** Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 27 fevral.- 2004.- Maddə 108.

http://anl.az/el/emb/H.Aliyev/senedler/27_fevral_2004.pdf